**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2013-cü il ərzində sosial -iqtisadi inkişafın nəticələri haqqında**

**M Ə L U M A T**

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

Ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan sürətli inkişaf 2013-cü ildə də davam etmiş, istehsal və xidmət sahələrində yüksək artım sürəti təmin edilmişdir. İlkin hesablamalara görə 2013-cü il ərzində ölkədə 57.7 milyard manat həcmində və ya əvvəlki ildəkindən 5.8 faiz çox ümumi mdaxili məhsul istehsal olunmuş, ÜDX-in əhalinin hər nəfərinə düşən həcmi 6207.3. manat və ya 7912.5 ABŞ dolları təşkil emişdir..

Ümumi daxili məhsulun formalaşmasında xüsusi rol oynayan sənaye sahəsində 2013-cü ildə 33.7milyard manatlıq məhsul istehsal olunaraq 2012-ci il ilə müqayisədə 1,8 faiz azalməşdır. Sənaye məhsulunun 74,0 faizi mədənçıxartma bölməsində 24,9 milyon ton neft və 1,8 milyard kubmetr əmtəəlik qaz hasil olunmuşdur.

Emal bölməsində qida məhsulları istehsalı 4,2 faiz, içki istehsalı 13,6 faiz, toxuculuq sənayesi məhsulları istehsalı 61,0 faiz, geyim istehsalı 21,6 faiz, dəri və dəri məmulatlarının, ayaqqabı istehsalı 30,9 faiz, poliqrafiya məhsulları istehsalı 43,4 faiz, neft məhsulları istehsalı 6.2 faiz, kimya sənayesi məhsulları 19,5 faiz, əczaçılıq məhsulları istehsalı 12.8 faiz, tikinti materialları istehsalı 21,0 faiz, avtomobil və qoşquların istehsalı 28.9 faiz, sair nəqliyyat vasitələri istehsalı 2.3 dəfə, maşın və avadanlıqlarının quraşdırılması və təmiri 31,3 faiz artmışdır.

**2013-cü ilin yanvar-dekabr aylarında ümumi daxili məhsulun strukturu**




2013-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 17872,1 milyon manat məbləğində investisiyalar yönəldilmişdir.

Əsas kapitala yönəldillmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 8012.1 milyon manat ( ümumi investisiyanın 44.8 faizi), bank kreditlələri 860.6 milyon manat (4.8 faizi), büdcə vəsaitləri 7829.2 milyon manat (43.8 faizi), büdcədənkənar fondların vəsaitləri 558.7 milyon manat (3.2 faizi), əhalinin şəxsi vəsaitləri 469.1 milyon manat (2,6 faizi), digər vəsaitlər isə 142.4 milyon manat (0.8 faizi) təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**

Ümumi həcmdə xüsusi çəkisi, faizlə




2013-cü ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 218.0 milyon ton və ya 3,4 faiz çox yük daşınmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 57,4 faizi avtomobil 26.6 faizi boru kəməri, 10.7 faizi dəmir yolu, 5.3 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

Ötən ildə özəl bölmənin nəqliyyat vasitələri ilə yük daşınması 5.0 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 75.0 faiz təşkil etmişdir.

Nəqliyyatçılar 1.7 milyard nəfərə və ya 2012-ci illə müqayisədə 8.0 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 87.9 faizi avtomobil, 11.8 faizi metro nəqliyyatı ilə daşınmışdır

**Dəmir yolu nəqliyyatı** ilə yük daşınması 2013-cü ildə 23,2 milyon ton yük daşınmışdır.İl ərzində orta hesabla sutkada 662 vaqon yüklənmiş, 585 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 25.0 min ton, Qərb istiqaməti üzrə 6.4 min ton və Cənub istiqamətləri üzrə 5.8 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 11.5 milyon ton təşkil etmişdir. Yüklərin 56.4 faizini neft yükləri, 43.6 faizini isə quru yüklər təşkil etmİş və demək olar ki, bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. İl ərzində **dəniz limanlarında** 12.4 milyon ton yukləmə-boşaltma işləri həyata keçirilmişdir. İşlənmiş yüklərin 85.0 faizini beynəlxalq tranzit yüklər təşkil

etmişdir.2013-cü il dekabr 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 113.3 min ton və ya əvvəlki illə müqayisədə 38.8 dəfə çox idxal yüklərin qalığı olmuşdur.

**Nəqliyyat sektorunda yük daşınması, min ton**




Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan avtomobil nəqliyyatı ilə 125.2 milyon yük, 1.5 milyard sərnişin daşınmış və əvvəlki illə müqayisədə müvafiq olaraq 6.0 və 8.3 faiz artmışdır. Sərnişinlərin 96.3 faizi avtobus, 3.7 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 6.1 faiz, sərnişin dövriyyəsi isə 9.2 faiz artmışdır.

**Metro nəqliyyatı**nın xidmətlərindən il ərzində İstifadə etmiş sərnişinlərin sayı 206.7 milyon nəfər olaraq 5.6 faiz artmışdır.

**Hava nəqliyyatı** ilə 1.7 milyon və ya 4.2 faiz çox sərnişin daşınmış, daşımanın 99.6 faizi dövlət bölməsinə, 0.4 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 1,5 dəfə artaraq 121,9 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 43.5 milyon ton neft nəql edilmişdir. Nəqletmənin dörddə üç hissəsi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan H. Əliyev adına BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən il ərzində bu kəmər vasitəsilə 33.0 milyon ton neft ötürülmüşdür. Dövr ərzində gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə 3.3 milyon ton trranzit Türkmənistan nefti nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 20,0 milyard kub-metr qaz nəql edilmişdir. Nəql edilmiş qazın 23.6 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 4.7 milyard kub-metr qaz ötürülmüşdür.

**"İpək yolu" nəqliyyat dəhlizi**nin Azərbaycana məxsus hissəsində 2013-cü ilin yanvar-noyabr aylarında 54.1 milyon ton və ya 4.2 faiz çox yük, 260.0 milyon nəfər və ya 9.4 faiz çox sərnişin daşınmışdır. Yüklərin 24.9 milyon tonu və ya 46.1 faizi avtomobil, 19.7 milyon tonu və ya 36.4 faizi dəmir yolu, 9.5 milyon tonu və ya 17.5 faizi dəniz nəqliyyatının payına düşmüşdür. Yük daşımaları fəaliyyətindən 421.0 milyon manat, sərnişin daşımasından isə 86.6 milyon manat gəlir əldə olunmuş və müvafiq olaraq 7.3 və 15.8 faiz artmışdır.